

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 203 (20.857)

*30 oktyabr 2013-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Braziliya-Azərbaycan dostluq qrupunun sədri, Deputatlar Palatasının müvəkkili Klaudio Kajadonu qəbul etmişdir.

Yenidən Prezident seçilməsi münasibətilə dövlətimizin başçısını təbrik edən Klaudio Kajado oktyabrın 9-da Azərbaycan xalqının müdrik seçim etdiyini vurğuladı. Braziliyalı qonaq iştirak edəcəkləri III Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətini qeyd etdi. Nümayəndə heyəti ilə ölkəmizə səfər etdiyini deyən Klaudio Kajado yeni yaradılan Braziliya-Azərbaycan dostluq qrupunun fəaliyyətinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Braziliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğuladı. Siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd edən Prezident İlham Əliyev bu yaxınlarda Braziliyanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini təqdim etməsinin əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün də böyük imkanların olduğunu dedi. Prezident İlham Əliyev Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun yaradılmasını ölkələrimiz arasında əməkdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirdi. III Bakı Beynəlxalq Humanitar Forumunun önəmini vurğulayan Prezident İlham Əliyev forum çərçivəsində keçiriləcək görüşlərin ölkələrarası əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

# Naxçıvanda Türkiyənin Cümhuriyyət bayramı münasibətilə rəsmi qəbul təşkil edilmişdir





Oktyabrın 28-də Türkiyə Cümhuriyyətinin yaradılmasının 90-cı ildönümü münasibətilə Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən rəsmi qəbul təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilmişdir.

Tədbirdə çıxış edən Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Əli Rza Akıncı XX əsrin əvvəllərində türk xalqının istiqlal uğrunda apardığı mübarizədən danışmışdır. Qeyd olunmuşdur ki, Osmanlı dövlətinin süqutundan sonra Mustafa Kamal Atatürkün rəhbərliyi və türk xalqının iradəsi ilə həyata keçirilən azadlıq mübarizəsi öz bəhrəsini vermiş, müstəqil, demokratik, hüquqi və dünyəvi Türkiyə Cümhuriyyəti yaradılmışdır.

Əli Rza Akıncı Türkiyə-Azərbaycan əlaqələrinin qarşılıqlı inam və etibar, strateji müttəfiqlik zəminində uğurla inkişaf etdiyini bildirərək demişdir ki, hazırda ikitərəfli münasibətlərimiz dünya birliyində nümunə kimi qəbul olunur. Öz kökünü xalqlarımızın qədim tarixindən, ortaq soykökdən və milli-mənəvi dəyərlərdən alan bu münasibətlərin inkişafına Naxçıvan da öz layiqli töhfəsini verir. Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı qarşılıqlı əlaqələr yüksək səviyyədədir. Baş konsul bu əlaqələrin gələcəkdə daha da inkişaf etdiriləcəyinə əminliyini bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə Respublikasının milli bayramı – qardaş ölkədə respublika elan olunmasının 90 illiyi münasibətilə tədbir iştirakçılarını təbrik etmiş, qardaş Türkiyə xalqına və dövlətinə inkişaf və tərəqqi arzulayaraq demişdir: "Hər bir ölkənin ən böyük milli sərvəti onun dövlət müstəqilliyidir. 90 il bundan əvvəl müstəqillik və Cümhuriyyət yolunu tutan Türkiyə Respublikası bu gün regionda və dünyada söz sahibi olan inkişaf etmiş dövlətə çevrilmişdir. Qardaş Türkiyənin inkişaf yolunu müəyyənləşdirən böyük Mustafa Kamal Atatürkün tarixdə ən böyük xidmətlərindən biri də Türkiyə-Azərbaycan dostluğunun əsasını qoymasıdır. İyirminci əsrin əvvəllərində əsası qoyulan bu münasibətlər həmin əsrin sonunda ümummilli lider Heydər Əliyev tərəfindən ***"Bir millətin iki dövləti"*** səviyyəsinə qaldırılmışdır".

Ali Məclisin Sədri demişdir: "Xalqlarımızın milli liderləri – Atatürk və Heydər Əliyev Türkiyə-Azərbaycan birliyini inkişafın və siyasi mövcudluğun mühüm şərti kimi müəyyənləşdirmişlər. Bu gün bu yola, bu siyasətə sadiq olan xalqlarımız və dövlət rəhbərlərimiz Azərbaycan-Türkiyə strateji birliyinin nəyə qadir olduğunu nümayiş etdirirlər".

"Türkiyə və Azərbaycan xalqlarının tarixi birliyi və sarsılmaz dostluğu bizim ən böyük sərvətimizdir. Belə bir möhkəm təməl üzərində qurulmuş münasibətlərimiz bir nümunə gücündədir. Bu əlaqələr bundan sonra da nümunə gücündə olacaq və daha da inkişaf edəcəkdir. Ona görə ki, bizim işıqlı gələcəyimiz xalqlarımızın müştərək milli maraqlarından keçir", – deyən Ali Məclisin Sədri çıxışını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Ölkələrimiz arasında bütün sahələrdə uğurlu əməkdaşlıq, işbirliyi mövcuddur. Siyasi, iqtisadi, hərbi, mədəni – bütün sahələrdə münasibətlərimiz inkişaf edir və bu, bizi çox sevindirir. Bizim gücümüz bizim birliyimizdədir. Türkiyə harada, Azərbaycan orada, Azərbaycan harada, Türkiyə orada olmalıdır".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan Muxtar Respublikasında həyata keçirilən məhkəmə-hüquq islahatlarına həsr olunmuş beynəlxalq seminar başa çatıb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dəstəyi, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Azərbaycan Hüquqşünasları Konfederasiyası, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı və Almaniya Federal Ədliyyə Nazirliyinin Beynəlxalq Hüquq Əməkdaşlığı Fondunun təşkilatçılığı ilə Naxçıvan şəhərində keçirilən "Naxçıvan Muxtar Respublikasında aparılan məhkəmə-hüquq islahatları: hakimlər üçün Avropa İnsan Hüquqları Konvensiyasına dair (Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci və 6-cı maddələrinə xüsusi diqqət yönəldilməklə)" ikigünlük Beynəlxalq Seminar oktyabrın 29-da öz işini davam etdirib.***



Seminarın növbəti mövzuları "Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi: ədalətli məhkəmə araşdırılması hüququ (Normanın tətbiqi dairəsi: mülki hüquq, cinayət hüququ, prinsip etibarilə həmçinin inzibati hüquq; müstəqil olan bir məhkəməyə çatım hüququ; ədalətli məhkəmə araşdırılmasına olan tələblər (dinlənilmə hüququ, tərəflərin imkan və vasitələrin bərabərliyi, icraat materialları ilə tanış olmaq hüququ və sair); açıq şifahi məhkəmə icraatı; təqsirsizlik prezumpsiyası və ittiham olunan şəxsin hüquqları; qərarın ağlabatan müddət ərzində qəbul olunması) olub.

Məruzəçi qismində İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin insan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri, AHK İdarə Heyətinin üzvü Çingiz Əsgərov, Federal Publik İdarəçilik İnstitutunun publik hüquq (dövlət və Avropa hüququ) üzrə professoru Prof.Dr.Mixaela Vittinqer və Almaniya Federal İnzibati Məhkəməsinin sabiq hakimi, tərkib sədri Dr. Otto Mallmann çıxış ediblər.

Beynəlxalq tədbir müzakirələrlə davam etdirilib.

Beynəlxalq seminarın nahardan sonrakı hissəsində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin insan hüquqlarının müdafiəsi məsələləri sektorunun müdiri, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi, AHK İdarə Heyətinin üzvü Çingiz Əsgərov, Almaniya Federal İnzibati Məhkəməsinin sabiq hakimi, tərkib sədri Dr. Otto Mallmann və Federal Publik İdarəçilik İnstitutunun publik hüquq (dövlət və Avropa hüququ) üzrə professoru Prof.Dr.Mixaela Vittinqer "Avropa İnsan Hüquqları Konvensiyasının 3-cü maddəsi: işgəncənin qadağan edilməsi", "Avropa İnsan Hüquqları Konvensiyasının 8-ci maddəsi: şəxsi və ailə həyatının qorunması hüququ", "Avropa İnsan Hüquqları Konvensiyasının 9-cu maddəsi: vicdan və din azadlığı", "Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsi: fikir ifadə etmək azadlığı", "Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsi: birləşmək və toplaşmaq azadlığı" mövzularında məruzələrlə çıxış ediblər.

Daha sonra müzakirələr keçirilib. Bununla da, beynəlxalq seminar başa çatıb.

**Muxtar MƏMMƏDOV**

# Sabitliyə, tərəqqiyə səs verdik

Dünyada baş verən hadisələri, dövlətlərin idarə edilməsini, insan cəmiyyətlərinin dolanışıq tərzlərini hər gün ekran, mətbuat vasitələri ilə izləyirəm. Dünya klassiklərinin çoxunun əsərlərini oxumuşam. Cəmiyyətin ədalətlə idarə olunması, dinclik, əmin-amanlıq, insan arzularına qol-qanad vermək idealları, mən deyərdim ki, dahi Azərbaycan şairi Nizami Gəncəviyə məxsusdur. Dahi şair öz əsərlərində qıfılsız qapılar, gözətçisiz sahələr, çobansız sürülər arzulamaqla sakit məmləkətlər görmək istəyini poetik dillə qələmə almışdır. İndi dünyada belə sabitlik, əmin-amanlıq yalnız Azərbaycan adlanan məmləkətdə mövcuddur. Bu sabitliyin, öz əməyinin bəhrəsi ilə yaşayışın hər bir vətəndaşın dövlət tərəfindən bütün hüquqlarının qorunmasının, əsl mənada, səbəbkarı ulu öndər Heydər Əliyevdir. Bu sabitliyin, inkişafın təminatçısı isə dahi rəhbərin siyasi varisi cənab İlham Əliyevdir. Nə gizlədək, ağa ağ, qaraya qara demək lazımdır. Yaxın 25 ilin ərzində gördük ki, tərkibində yaşadığımız sovet imperiyası açıq-aydın Azərbaycan torpaqlarından ermənilərə təkrar pay vermək üçün nəhəng bir dövləti bada verdi. Unutdu ki, Adolf Hitlerin, faşizmin cəngindən bu imperiyanı qurtarmada Azərbaycan xalqının misilsiz xidməti olub, müharibədə işlənən yanacağın 85 faizi Azərbaycandan gedib. Bu haqqı-sayın “sağ ol” əvəzinə sovet imperiyası ağır döyüş texnikaları ilə 1990-cı ilin yanvarında Bakıya hücum çəkdi. Ermənilərin torpaq iddialarına dəstək verdi. İmperiya rəhbərliyi Azərbaycanı parçalamaq, onu döyüş poliqonuna çevirmək, vətəndaş qarşıdurması yaratmaq üçün hər cür planlar hazırlamışdı. Bu xalqı bəladan ulu öndər Heydər Əliyev xilas etdi, Azərbaycan dövlətini qurdu. Son 100 ildə analoqu olmayan böyük neft strategiyası yaratdı. Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Avropa dövlətləri ilə iqtisadi əlaqələr quruldu. Dahi şəxsiyyət həm də Vətənimiz üçün özündən sonra xalqın müstəqilliyini dünya səviyyəsində yaşadan İlham Əliyev kimi varis də yetişdirmişdir. Həqiqət göz qabağındadır. Cənab İlham Əliyev 10 ildir, uğurla Azərbaycan xalqına rəhbərlik edir.

9 oktyabr 2013-cü il prezident seçkilərində biz də xalqımızın düşünən təfəkkürünə, iradəsinə qoşularaq cənab İlham Əliyevə səs verdik. O, ölkəmizin yaşayış məntəqələrinin sosial inkişaf problemlərinin həllini bacarıqla həyata keçirir. Bizim yaşadığımız Şahbuz rayonunun Ayrınc kənd tam orta məktəbinin 2005-ci il dekabr ayında reallaşdırılan açılışında cənab İlham Əliyev iştirak etmişdir. İndi dünyanın əksər ölkələri Naxçıvana həsəd aparır. Muxtar respublikamızın bütün yaşayış məntəqələri öz simasını dəyişir. Ona görə də xalq cənab İlham Əliyevə yekdilliklə səs verdi.

Cənab İlham Əliyevin gələcək beşilliklərdə də prezident seçilməsi, indiki kimi inamlı qələbəsi hamının ürəyincə olar. Ölkəmizdəki tərəqqi və sabitlik Naxçıvanı da çiçəkli bir diyara çevirmişdir. Ermənilərin Naxçıvan iddiaları alt-üst edilmişdir. Bu müqəddəs torpaqda yaşamaq, yaratmaq böyük şərəfdir. Hər birimiz yaşayış üçün yaradılmış hər cür şərait və sabitliyin müqabilində dövlətçiliyimizə xidmət etməyə borcluyuq. Sınaqdan çıxmış kəlamlarda da deyilir ki, yerdə dövlətçiliyini tanımayan göydə Allahını tanımaz. Ölkə başçısı cənab İlham Əliyevin prezident seçkilərində inamlı qələbəsi və bu qələbədən sonra onun xalqa müraciəti, qarşıda duran bütün məsələlərin həllinə diqqət çəkməsi bir ağsaqqal kimi şəxsən məni də hədsiz dərəcədə sevindirdi.

**Qaşdar ƏLİYEV**
*Şahbuz rayonunun*
*Ayrınc kənd sakini*

## Cəlaləddin Ruminin Naxçıvanda çapdan çıxan “Məsnəvi”si beynəlxalq simpoziumda nümayiş etdirilmişdir

Bu günlərdə Türkiyənin Kocatəpə Universitetində “Mövlana, mövləvilik və dünya mədəniyyətində yeri” mövzusunda Beynəlxalq Elmi Konfrans keçirilmişdir. Dünyanın müxtəlif ölkələrindən gəlmiş elm adamlarının iştirak etdiyi bu beynəlxalq məclisdə ölkəmizi AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev təmsil etmişdir. Əbülfəz Quliyev beynəlxalq tədbirdə “Mövlana Cəlaləddin Rumi yaradıcılığının Azərbaycanda öyrənilməsi və nəşri məsələləri” mövzusunda məruzə etmişdir. Həmyerlimizin məruzəsi maraqla qarşılanmışdır.

Beynəlxalq simpoziumda elm adamlarına təqdim edilən “Mövlana rəsm və kitab sərgisi”ndə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəfis şəkildə çapdan çıxmış 3 cildlik Mövlana Cəlaləddin Ruminin “Məsnəvi”si də nümayiş etdirilmişdir. Bu çap məhsulu beynəlxalq elmi konfransa qatılanların marağına səbəb olmuşdur.

## “Statistik təhlil” mövzusunda təlim kursu



Naxçıvan Dövlət Universitetində Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi “Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi” layihəsi çərçivəsində növbəti təlim kursuna başlanılıb. Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən “Statistik təhlil” mövzusuna həsr olunan təlim kursunu giriş sözü ilə universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov açaraq universitetdə müxtəlif mövzulara həsr olunmuş bir neçə təlim kursunun uğurla reallaşdırılmasından bəhs edib. Qeyd olunub ki, muxtar respublikanın bütün dövlət strukturlarının əməkdaşlarının, habelə universitetin müxtəlif ixtisaslar üzrə müəllim və tələbələrinin iştirak etdiyi bu təlim kursları kadr hazırlığı baxımından mühüm əhəmiyyət kəsb edir.

Universitetin rektoru, professor Saleh Məhərrəmov çıxışında belə təlim kurslarının dövlət idarəçiliyi sahəsində milli kadr potensialının artırılmasına verdiyi töhfədən bəhs edib, beynəlxalq ekspertlərin təcrübələrinin öyrənilməsi və tətbiqinin zəruriliyindən danışıb.

Ekspert təlimçi, Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı Elçin Rəşidov, İqtisadi və Sosial İnkişaf Mərkəzinin eksperti, ekonometika və maliyyə fənləri üzrə təlimçi Ziya Əlili bu sahədəki dünya təcrübəsi, təlim kursunda bəhs olunacaq mövzular barədə məlumat verərək bildiriblər ki, təlimin keçirilməsində əsas məqsəd geniş istifadə olunan statistik metod və üsullar barədə dinləyicilərə məlumat verməkdən, həmçinin statistik təhlilin ən faydalı şəkildə tətbiq olunduğu halların müəyyən olunmasından ibarətdir. Qeyd olunub ki, təlim kursu sayəsində statistik təhlilin istifadəsi üzrə potensial güclənəcək, ekspertlərlə bərabər, müəllim və tələbələr də yeni metodologiya və materiallardan faydalanacaqlar ki, bu da həm layihənin davamlılığını təmin edəcək, həm də təsir dairəsini yeni miqyasda genişləndirəcək.

10 gün davam edəcək təlim kursunun iştirakçılarına sonda sertifikatlar veriləcək.

## Miqrasiya Xidmətində görüş

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində sahibkarlarla və muxtar respublikada fəaliyyət göstərən xarici ölkə vətəndaşları ilə görüş keçirilib.***



Tədbirdə xidmətin əməkdaşlarından Əfqan Əliyevin, İlqar Seyidovun, Zakir Məmmədovun çıxışları olub. Çıxışlarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi qaydaları, Azərbaycan Respublikasında əmək miqrasiyası və onun hüquqi tənzimlənməsi barədə söhbət açılıb.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

## Bu ilin ilk 9 ayında 127 obyektdə nəzarət-kassa aparatı quraşdırılıb

Cari ilin ilk 9 ayı ərzində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi və onun yerli orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən vətəndaşların aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və bu kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 87 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib. Bu barədə məlumatı qəzetimizə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi, vergi xidməti müşaviri Rəşad Əliyev verib.

Məlumatda o da bildirilib ki, həyata keçirilən operativ vergi nəzarəti tədbirləri zamanı 20 vergi ödəyicisi tərəfindən əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması, 25 vergi ödəyicisi tərəfindən isə xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergi ödəyicisində fiziki şəxslərin əmək müqaviləsi bağlanmadan işə cəlb edilməsi, 12 vergi ödəyicisinin fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 16 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq olmadan məşğul olmaları, 6 vergi ödəyicisində isə aksiz markaları olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib. Vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən şəxslərin aşkar edilməsi ilə bağlı həyata keçirilən nəzarət tədbirləri zamanı 7 şəxsin belə fəaliyyət göstərdiyi aşkar olunub.

Bəhs olunan dövrdə 127 obyektdə nəzarət-kassa aparatları quraşdırılıb, mövcud kassa aparatlarının işləkliyinə nəzarət gücləndirilib. Vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 21 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb, bu müşahidələr zamanı müşahidəyədək olan dövr ilə müqayisədə 31999,4 manat dövriyyə artımına nail olunub.

## Əmək yarmarkasında 24 nəfərə işə göndəriş verilib

Babək Rayon Məşğulluq Mərkəzinin keçirdiyi növbəti əmək yarmarkasını giriş sözü ilə mərkəzin direktoru Qurban Tarverdiyev açaraq bildirmişdir ki, əhalinin yeni iş yeri tapması üçün ən çevik formalardan sayılan əmək yarmarkalarının keçirilməsi daim diqqət mərkəzində saxlanılır. Məşğulluq Mərkəzinin əməkdaşları rayondakı idarə, müəssisə və təşkilatlarla, sahibkarlıq subyektləri ilə sıx əlaqə saxlayır, boş iş yerləri haqqında məlumatlar toplayır və həmin yerləri əmək yarmarkalarında işaxtaran vətəndaşlara təqdim edirlər.

Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Səlvər Hacıyev çıxış edərək əhalinin sosial rifahının gücləndirilməsi, yoxsulluğun azaldılması, məşğulluğun artırılması istiqamətində həyata keçirilən tədbirlərdən danışmışdır.

Tədbirdə işaxtaran vətəndaş Ceyhun Hacıyev çıxışında məşğulluğun təmin olunması üçün əmək yarmarkalarının səmərəli metod kimi əhəmiyyətini vurğulamış, yeni iş yerlərinin yaradılması üçün dövlətimiz tərəfindən keçirilən tədbirləri ölkə vətəndaşlarına göstərilən qayğı kimi dəyərləndirmişdir.

İşaxtaran vətəndaşlara yarmarkada 14 təşkilatdan 96 boş iş yeri təqdim edilmiş, 24 nəfərə işə göndəriş verilmişdir.

## Naxçıvan rabitəsi NGN texnologiyası əsasında qurulur

Naxçıvan Muxtar Respublikasında dövlətin himayəsi ilə bütün sahələr kimi, informasiya və kommunikasiya texnologiyaları sektoru da sürətlə inkişaf edir. Bunun nəticəsidir ki, hazırda əhalinin nəinki telefon rabitəsi, hətta bütün multimedia və informasiya texnologiyalarına çıxışı təmin olunmaqdadır. Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən müasir texnologiyaların tətbiqi və milli rabitəmizin yeni texnologiyalar əsasında qurulması daim diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə aparılan işlərin davamı olaraq, Naxçıvanın telekommunikasiya şəbəkəsi yeni nəsil NGN (Next Generation Networking) texnologiyası əsasında yenidən qurulur.

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyindən aldığımız məlumata görə, muxtar respublika ərazisində yeni nəsil telekommunikasiya sisteminə keçid 4 mərhələdə həyata keçirilir. Artıq 3-cü mərhələnin icrası ilə əlaqədar Şahbuz və Babək rayonlarında da yeni texnologiyaların tətbiqinə başlanılıb. Şahbuz və Babək rayonlarında qurulacaq yeni sistem üçün avadanlıqlar Naxçıvana gətirilib, hazırda montaj-tənzimləmə işləri həyata keçirilir. Cari ilin sonuna kimi işlərin başa çatdırılması və sistemin istifadəyə verilməsi nəzərdə tutulur. Şahbuz rayonu ərazisində mövcud olan avtomat telefon stansiyaları tamamilə, Babək rayonunun isə qalan əraziləri yeni NGN avtomat telefon stansiyaları ilə əvəz ediləcək. Şahbuz şəhərində 1536, Kolanı, Sələsüz, Keçili kəndlərinin hər birində 384, Külüs, Kükü, Biçənək kəndlərində 288, Badamlı qəsəbə, Şahbuzkənd, Qızıl Qışlaq, Nursu, Ağbulaq kəndlərində 256, Aşağı Qışlaq kəndində 320, Yuxarı Qışlaq kəndində isə 192 nömrətutumlu yeni nəsil telekommunikasiya sistemi qurulacaq. Bundan başqa, Babək rayonunun Cəhri kəndində 1024, Şıxmahmud, Qahab, Kərimbəyli kəndlərinin hər birində 512, Sirab kəndində 448, Zeynəddin kəndində 416, Kültəpə, Uzunoba, Didivar kəndlərində 384, Vayxır, Xalxal, Nəzərabad, Məmmədrza Dizə kəndlərində 256, Məzrə kəndində 320, Buzqov kəndində 288, Payız kəndində isə 128 nömrə tutumlu yeni avtomat telefon stansiyaları quraşdırılacaq.

NGN texnologiyasının tətbiqindən sonra ADSL internet portallarının sayını istənilən qədər artırmaq mümkün olacaq ki, bu da region abunəçiləri üçün daha keyfiyyətli, daha təhlükəsiz rabitə xidməti ilə yanaşı, genişzolaqlı internetdən istifadəyə geniş imkan yaradacaq. Yuxarıda göstərilən yeni nəsil telekommunikasiya sistemi istifadəçilərə İP-TV, videotelefon, internetə sürətli qoşulma ilə yanaşı, çoxlu sayda servis xidmətlərindən istifadə etmək imkanı verir. Bura çıxış və giriş zənglərinin məhdudlaşdırılması, nömrənin bağlanması, zəngli saat, birbaşa və cavab olmayanda yönəltmə, məşğulluq zamanı yönəltmə, ikinci zəngin qəbulu, nömrənin məşğulluğu zamanı məşğulluq bitdikdə hər iki tərəfə zəng göndərilməsi, 3 və 64 nəfərlik konfrans rabitə, konfrans rabitə zamanı ikinci zəngin qəbulu, nömrənin təyin edilməsi, daxili telefon xidməti və sair xidmətlər aiddir. Qeyd edək ki, bu sistem 2010-cu ilin may ayından başlayaraq Naxçıvan şəhəri, Babək qəsəbəsi, Nehrəm və Yarımca kəndlərində, 2012-ci il mart ayından isə Şərur və Sədərək rayonlarında istismar olunur.

**Xəbərlər şöbəsi**

Bu yerlərə təbiətin bir az misgilli vədəsində gəldim, nədən ki, dünənə qədər sinəsinə lalədən, bənövşədən, nərgizdən, min-min şəfalı otlardan bəzək-düzək vuran dağ döşləri saralıb-soluxmuşdu. Heç səhər-axşam bu döşlərə, yastanlara səpələnən, gün batanda kənd həyətlərində badyaları, sərnicləri südlə aşırıb-daşıran qoyun-quzu sürüləri, inək naxırları da gözə dəymirdi. Hər tərəf sarı rəngə boyanmışdı. Bir qədər aralıda nəhəng cəviz ağaclarının altında gizlənən kənd evləri görünürdü. Zirvəsinə baxanda papaq düşürən dağların yalçın qayalarının altından süzülüb üzə çıxan su sızıntıları ağ sicim kimi üzüaşağı sallanır və dərənin dibi ilə axan çaya qovuşurdu. Avtomobilimiz irəlilədikcə mənzərə də dəyişirdi, qənşərdəki Üç qardaş, Camal qalası, Ərəci dağları kəndi doğma balası, övladı kimi ana məhəbbəti ilə ovucunda, qucağında saxlayırdı, amma bu bala şıltaq uşaqlar kimi bu ovuca, bu qucağa sığıb-sığışmaq istəmirdi. Yaraşıqlı evlər dağ döşləri boyu cərgələnir və adama elə gəlirdi ki, bu sıralar, cərgələr artdıqca-artacaq, lap zirvəyə qədər çatacaqdır.

*Jurnalistin qeydləri*

# Dünənimizdən bu günümüzə gələn yol



Yadımdan çıxmasın deyə, yazımın bu yerinə onu əlavə edirəm ki, belə bina cərgələrini kənddən azca aralıda da gördüm: hamısı eyni biçimdə, eyni görkəmdə, eyni yaraşıqda. Saydım, 12 ev idi: 8-i üçotaqlı, 4-ü ikiotaqlı. 2011-ci ildə kənddə torpaq sürüşməsi oldu və 12 evə ziyan dəydi. Dövlət heç bir il çəkmədi ki, dədə-baba evlərindən də qəşəng evlər tikib, necə deyərlər, müftəmüsəlləm bağışladı bu insanlara və dedi ki, buyurun, sağlıqla, cansağlığı ilə yaşayın, ömür sürün. Oxucu elə düşünməsin ki, mən bilərəkdən bu kəndin adını çəkməkdə xəsislik edirəm. Xeyr, istəyirəm ki, bu yazını oxuyan kəsdə kənd haqqında az-çox təsəvvür yaransın. Sözün kəsəsi, yolum Şahbuz rayonunun Keçili kəndinə idi.

### *Nağıllaşan həqiqət*

Kəndin bu günü haqqında yazmağa gedirdim. Bəs hardan gəlib düşdü beynimə 80-90 il bundan irəliki əhvalatlar? O əhvalatlar ki, ağızdan-ağıza keçib, rəvayətlərə, nağıllara dönüb, amma o var ki, bu nağılların, rəvayətlərin fövqündə bir insan dayanır – Qaçaq Quşdan. Bu Qaçaq Quşdan kim olub, niyə onun adı Keçili camaatını qürurlandırır? Deyilənlərə görə, Naxçıvan tərəfdə qırmızı imperiya öz bayrağını axırıncı olaraq Keçili kəndində taxıb. Qaçaq Quşdan, əlbəttə, tək olmayıb və bir neçə həmkəndlisi ilə silah götürüb bolşevik hökumətinə qarşı çıxıb. Bu insanlar mülkədar, xan, bəy deyildilər, var-dövlətləri başlarından aşmırdı ki, yeni hökumət onların mal-mülklərini alsın. Bunlar adi kəndlilər idi, amma əqidələri başqa idi və 70 ildən sonra dağılacaq quruluşa qarşı elə 70 il əvvəl çıxmışdılar. 21 yaşında mübarizə yoluna düşən Quşdan 7 il sərasər Keçilini dövrələyən dağlarda yaşayıb, qaraborana düşüb, arada pirli yolla doğma evinə, ailəsinə də baş çəkib, hökumətin xəbərdarlıqları, hədə-qorxuları onu yolundan, əqidəsindən döndərə bilməyib və günlərin birində – 1932-ci ildə evinə, ailəsilə görüşə gəldiyi gün ömrünün sonuncu günü olub. Və bu hadisəni də kənddə belə nağıllayırlar ki, hansısa nankor – onu da əlavə edirlər ki, həmin kəs Keçilidən deyilmiş – Quşdanın kənddə olduğunu hökumət orqanlarına çatdırıb və onlar da dan üzü təzəcə söküləndə Quşdanın evini mühasirəyə alıblar. Silahı yerə qoymaq, təslim olmaq təklifini Quşdan rədd eləyib, qeyri-bərabər döyüşə başlayıb, sonuncu gülləsini isə özünə saxlayıb – onda Quşdanın 28 yaşı vardı.

### *Bu günün həqiqətləri*

Şahbuz şəhərinə çatar-çatmaz sağ tərəfdəki dağlara sarı düz yol ayrılır. Bəri başdan deyim ki, Naxçıvan-Şahbuz yolunun rahatlığına, təhlükəsizliyinə söz ola bilməz. Yol infrastrukturuna belə yüksək diqqət və qayğı məndə fərəh və qürur doğurur. Eyni hissi dağ yolu ilə irəlilədikcə də keçirirdim. Nə bir çala-çuxur, nə bir təhlükəli eniş-yoxuş, nə də sərt döngələr var idi. Və onu da fikirləşirdim ki, bütün bunlar bu həndəvərdə yaşayan insanların rahatlığı üçündür, gediş-gəlişlərinin asanlaşdırılması üçündür. Bu yol səmtinin üstündə rayonun dörd kəndi qərar tutub, əvvəlcə Kiçikoba gəlir, sonra Şahbuzkənd, ondan sonra Külüs və Keçili kəndləri. Bu gün dağ kəndlərinin abadlığına, gediş-gəlişinə, insanlar üçün yaradılan həyat şəraitinə heyran olmaya bilmirsən. Dönə-dönə belə kəndlərdə olmuşam, sakinlər ilə görüşüb söhbət etmişəm, hər dəfə də sözümüzün canı o olub ki, yəni kənd adamını deyirəm, hər şey yaxşıdır. Bir məsələni isə xüsusi diqqətə çəkirlər: o kəslər ki, sovet quruluşunda daha çox yaşayıblar və o eybəcərlikləri görüblər. Məsələn, onu görüblər ki, gərək kəndli dövlətə ət verəydi, yun verəydi, yumurta verəydi, xülasə verəydi, verəydi. Və dövlət də soruşmurdu: "bəs özünə nə qaldı?"

Keçilidə sovxoz həyatından bir epizod nağılladılar, matım-qutum qurudu, necə deyərlər, əlim üzümdə qaldı. Kəndlinin mal-heyvanının, qoyun-quzusunun qış yemi təsərrüfat başçısını qətiyyən maraqlandırmırdı. Gərək hər kəs müəyyən edilmiş normada dağdan-daşdan ot biçib gətirib sovxoza təhvil verəydi, ondan sonra yerdə-yurdda qalan vardısa, özünün mal-heyvanına tədarük edəydi. Və belə olanda kimidi, qapısında inək, yainki bir keçi saxlayan? Kənd adamı yaxşını pisdən seçməyi bacarandır, ona görə də bu günlərindən razıdır: kimdir, onlardan ət, yun, yumurta istəyən, kimdir, onları dağa-daşa ot biçininə göndərən? Dövlət keçillilərə 4 min 342 hektar örüş otlaq sahəsi bağışlayıb, deyib, hamınıza çatar, nə qədər mal-heyvan, toyuq-cücə saxlayırsınız, saxlayın, bir kəs sizə gözünüz üstə qaşınız var deməyəcək. Bəs Keçili sakini bundan necə istifadə edir? Bu barədə bir az sonra danışacağam. Kəndin baş küçəsində üstündə "Çınqıllı" yazılmış böyük bir bina diqqəti cəlb edir. Oxucuya kiçik bir məlumat verim ki, "Çınqıllı" Keçilidə bulaq adıdır və bu bulağın suyu dünyanın "mənəm-mənəm" deyən bulaqlarının kürəyini yerə vurar – dadına, tamına, sərinliyinə, şəfalılığına, süfrədəki hörmət-izzətinə görə.

Ümummilli liderimiz Heydər Əliyev bəyan eləmişdi ki, biz bazar iqtisadiyyatı yolu ilə gedirik və gedəcəyik. Bu ifadədə hər şey vardı – insanların güzəranının yaxşılaşdırılması, yerli xammaldan istifadə etmək imkanları, eyni zamanda yeni iş yerləri açmaqla dövlətə kömək etmək, dükan-bazarı yerli məhsullarla doldurmaq, ucuzluq yaratmaq, xülasə yaşamaq, həm də yaxşı yaşamaq üçün lazım olan bütün şərtlər.

Həmin şərtlərdən biri və bəlkə də, birincisi odur ki, gərək əlindən gələn işin dalınca gedəsən. Söz var, deyərlər, "hər oxuyan Molla Pənah olmaz", necə ki, hər yerindən duran sahibkarlıqla məşğul ola bilmədiyi kimi. Amma keçilili Mənsur Əsgərlidə bu qabiliyyət varmış və bəlkə də, kimsənin ağlına gəlmədiyi bir işin qulpundan yapışıb. Həmin o Çınqıllı bulağının suyundan bir kiçik boru da çəkib gətirib kəndin bu başına. Təbii ki, bundan əvvəl bütün sənədləşmələr aparılıb, su dönə-dönə yoxlanılıb, müsbət keyfiyyətləri təsdiqlənib və sair. Bundan sonra bina tikilib, avadanlıqlar alınıb quraşdırılıb və Keçili dağlarının şah damarlarından süzülüb gələn Çınqıllı bulağının suyu naxçıvanlıların süfrəsini bəzəməyə başlayıb. Bu əhvalat olub 2007-ci ildə. Mənsur Əsgərli bununla kifayətlənməyib, su istehsalı zavodunun yanında bir lavaş sexi də açıb və hazırda hər iki sexdə 18 nəfər keçilili çalışır.

Kəndin uşaqlı-böyüklü 1828 nəfər əhalisi var, saysan, 286 ev olacaq. Amma təsərrüfat çoxdur, 410 təsərrüfatdır. İlbəil ailələrin sayı artır, təzə mənzillər tikilir, insanlar doğma torpaqlarında daha möhkəm yurd-yuva salırlar. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Vüqar Səfərovla yeni istifadəyə verilmiş kənd mərkəzində onun üçün ayrılmış otaqda kənd barədəki məlumatları qeyd dəftərçəmə köçürürəm. Oxucuya çatdırılası xoş məqamlar çoxdur və soruşanda ki, kənddən şəhərə köç və yaxud Şahbuzda, Naxçıvanda iş axtarmağa gedənlər varmı? Hər ikisinə "yox" cavabını aldım. Məlum oldu ki, Keçili kəndinin sakinləri başqa yerə iş dalınca getməyiblər. Ona görə ki, kəndin özündə dolanışıq üçün hər cür şərait var.

– Məsələn, hansı şərait var? – deyə mən dübarə sual edirəm.

– Bilirsinizmi, insan o zaman yurd-yuvasından aralı düşür ki, doğulduğu, boya-başa çatdığı torpaq onu dolandıra, yaşada bilməsin. İstəyirəm, bir qədər əvvələ qayıdam, 1998-ci ilə. Həmin il ümummilli liderimizin təşəbbüsü ilə həyata keçirilən torpaq islahatı Keçilidə də başa çatdı, adambaşına 3280 kvadratmetr torpaq paylandı. Hətta o vaxt ictimai təsərrüfatın 8 hektarlıq alma bağı da vardı ki, onu da bərabər surətdə, necə deyərlər, dədə malı kimi bölüşdürdülər və adambaşına 40 kvadratmetr də bağ sahəsi düşdü. Bütün bunları qoyuram bir qırağa, ən başlıcası o idi ki, insanlar sərbəstləşmişdilər, iş-güclərində azad idilər, yuxarıdan göstəriş, əmr-filan verən yoxdur və belə olanda da hər kəs papağını qabağına qoyub götür-qoy eləyir ki, hansı işin dalınca getsə, özünə istədiyi güzəranı qura bilər.

Bunları deyəndən sonra Vüqar müəllim özünün qeyd dəftərçəsindəki rəqəmləri göstərdi. Mən də bu rəqəmləri ötəri də olsa, beynimdə saf-çürük eləyəndən sonra gördüm ki, xeyr, keçililinin orda-burda iş axtarmaq barədəki sualım havayı bir şeymiş. Məsələn, kənddə iki mindən ziyadə qaramal var. Bu qədər inəyi Keçilinin 286 evinə böləndə görün hər evə neçə baş qaramal düşür və bu rəqəmi bir də kəndin körpəli, uşaqlı, böyüklü 1828 nəfərlik sakininə bölək, yenə adambaşına bir inəkdən də çox düşür. Kənddən hər gün örüş-otlağa 13 min 400 baş qoyun-quzu çıxır, həyət-bağçalarda 30 mindən çox quş saxlanılır. Elə ailə yoxdur ki, arısı olmasın, çünki qeyd dəftərçəmə baxıram ki, min rəqəmini yazmışam. Əlbəttə, bunlar ümumi göstəricilərdir, çünki hamı eyni səviyyədə yaşamır, yaşayış səviyyəsi hər kəsin öz əlində, öz bacarığında, qabiliyyətindədir. Məsələn, Təyyar Məmmədovun 30 baş qaramalı, 40 arı ailəsi, yük maşını, otbiçən maşını var. Deməli, təsərrüfat qurmağın yol-yolağasını tapıb. Başqa bir misalı da qeyd dəftərçəmdən bu yazıya köçürürəm: Pəhlivan Kərimov dövlətdən 3 min manat kredit götürüb, gedib kartof əkib, işləyib, zəhmət çəkib və qazancı da o olub ki, dövlətin borcunu qaytarıb, ailə büdcəsinə də xeyli xeyri dəyib. Belə misalların sayını çoxalda bilərəm; göz dəyməsin, Əsədulla Babayevin 150 baş qoyun-quzusu, 30 arı ailəsi, "NİVA" markalı, "QAZ-53" markalı maşını, otbiçən maşını var. Daha nə olmalıdır? Anar Məmmədovun 15 inəyi, 110 qoyunu, hələ balalarını demirəm, yük maşını var. Və bütün bu misalları beynimdə saf-çürük edə-edə görürəm ki, Keçilidən köçmək, dədə-baba qapısını qıfıllı, kilidli saxlamaq olmaz, yox əgər varsa, o kəs günah işlətmiş olur. O məlumatı da aldım ki, sözün qısası, heç kəs bu ucqar dağ kəndindən bir addım da o yana atası deyil. Və yazımın bu yerində oxucuya bir neçə məqamı da çatdırmaq istəyirəm ki, nə əcəb keçilili bu dağlara vurulub, nə əcəb daha rahat yaşayış dalınca qaçmır? Özüm də özümə verdiyim sualın kəsərinə inanmıram, nədən ki, Keçilidə insanların rahatlığı üçün bütün şərait var. İndi mən sayım, siz də görün ki, burada şəhər həyatından, şəhər rahatlığından da qat-qat üstün imkanlar var ki, şəhərdə bunları tapa bilməzsən. Bunlar hansılardır? Keçili camaatının istər qadını olsun, istər kişisi, istər cavanı olsun, istər piranisi, göz dəyməsin, hamısının yanağından, necə deyərlər, qan damır. Bu, sağlamlığın birinci əlamətidir. Keçilinin havası, suyu, nemətlərinin saflığı, təmizliyi dünyaya dəyər. Bunlar Ulu Tanrının Keçili kəndlisinə bəxş etdiyi həyat ərməğanıdır. Bəs dövlət nə verib? Muxtar respublikanın digər kəndləri kimi, Keçili kəndinə də mavi yanacaq – qaz çəkilib – bu, bir. Şəhərdə elektrik enerjisinin nəqli necədirsə, Keçilidə də elədir, yəni ay elektrik kəsildi, belə söz-söhbət ola bilməz – bu, iki. Hər gün kəndə Naxçıvan şəhərindən, Şahbuz şəhərindən dörd avtobus marşrutu işləyir – bu, üç. Hamının evində telefonu, cibində mobil telefonu: istədiyin vaxt dünyanın harasına istəyirsən, zəng elə –bu, dörd. Yazımın əvvəlində qeyd elədiyim kimi, rahat, abad yol və kənddə azından 60-70 ailənin minik, yük maşını. Sakinlərə yeddi mağaza xidmət edir. Şəhərəfilana gedib-gəlməyə ehtiyac yoxdur. Daha nə sayım? Hələ bunlar mənim bildiklərimdir, əminəm ki, bilmədiklərim də az deyil.

Az qala kələfin ucunu itirəcəkdim. O mənada ki, Keçilidə kənd və xidmət mərkəzləri də tikilib. Bu, nə deməkdir? Bunların hamısı keçililərin rahatlığı üçündür. Kəndin icra nümayəndəliyi, bələdiyyəsi, kitabxana, klub, baytarlıq və polis məntəqələri, poçt, ATS burda – kənd mərkəzində yerləşir. Bir az kənarda xidmət mərkəzi var, kənd mərkəzinin yaxınlığında həkim ambulatoriyası inşa olunub. Xülasə, hər hansısa bir kəsin belə qurumlara, xidmət sahələrinə işi düşərsə, necə deyərlər, dağa-daşa üz tutmayacaq, kəndin ortasında yerləşən və hamıya eyni dərəcədə yaxın olan bir ünvana üz tutacaq.

İcra nümayəndəliyindən çıxıb məktəbə sarı yollanıram.

Bu da kənd məktəbi – 2001-2002-ci illərdəki tikintini xatırlayıram. 504 şagird yerlik müasir tələblərə cavab verən ucqar dağ kəndinin məktəbi. Hələ o vaxt Ali Məclis Sədrinin göstərişinə əsasən, məktəblər uzun müddət üçün tikilirdi, yəni gələcək perspektiv əsas götürülürdü və 2002-ci ildə məktəb istifadəyə veriləndə Keçilidə 504 uşaq hardaydı? Düzdür, indi uşaqların sayı ilbəil artır, maşallah olsun! Elə bu il 25 uşaq birinci sinifdə oxuyur. Bu il məktəbin 10 məzunu ali məktəblərə daxil olub, özü də necə? 5 nəfər 500-dən yuxarı, 2 nəfər isə 600-dən yuxarı bal toplayıb. Bilirsinizmi niyə? Yazımın bir yerində dedim ki, dağ kəndi ilə şəhər yaşayışı arasında heç bir fərq yoxdur və bu bərabərlik təhsilə də aiddir. Məktəbdə müxtəlif laboratoriyalar, fənn kabinələri, elektron lövhələr, kompüter dəstləri və daha nələr, nələr. Şəhər məktəbinin şagirdlərinin geyimi ilə Keçili balalarının geyimi arasında da heç bir fərq görmədim, eyni məktəbli forması, eyni çanta, eyni işıqlı, tərtəmiz sinif otaqları. Bütün bunlar Azərbaycan dövlətinin gələcək nəslə olan qayğısından xəbər verir. Məktəbdə 52 müəllim çalışır, hamısı da elə Keçili məktəbinin yetirmələridir.

Payız Günəşi özünün sarımtıl şüalarını Keçilini dövrələyən dağların sarımtıl döşlərindən yığışdırıb qüruba doğru yol alırdı. Dağ kəndinin ikinci həyatı bundan sonra başlanır: mal-qara, qoyun-quzu, toyuq-cücə yerbəyer olunur, axşam sağını başa çatdıqdan sonra tövlə axurlarına otalaf tökülür. Artıq çöl-bayırda, sən deyən, ot-əncər qalmayıb, amma qış hələ qabaqdadır. Buraların qışı arana bənzəmir, uzun çəkir. O var ki, kəndli də öz işini yaxşı bilir, hələ yazdan-yaydan qış tədarükünü görüb. Kəndin baytar həkimi Cəfər Əsgərov mal-qaranın sağlamlığından razıdır, üstəlik dövlət də nə dava-dərman lazımdırsa, göndərib,– deyir. Bu yerlərin ab-havası, suyu, Günəşi, hər cür dərdin dərmanı olan süfrə bolluğu, Allah bilir, daha nələr, nələr bu insanları dava-dərmandan uzaq salıb, maşallah, göz dəyməsin, cavanlı-qocalı hamının yanağından qan damır.

***Söz var, deyərlər, yolçu yolda gərək. Çoxdan tanıdığım, bəzisi ilə bu gün tanış olduğum insanlarla sağollaşıram. Kənd evləri yavaş-yavaş arxada qalır, rahat, abad, əliçi kimi yol məni üzüaşağı – Araza sarı aparır. Amma ürəyim payızın sarımtıl rənginə boyanmış bu dağlarda çöhrələrindən mərdlik yağan insanların yanında qalır. Dünənimizdən bu günümüzə, bu günümüzdən sabahımıza və neçə-neçə sabahlara aparan yolum hələ qarşıdadır. Oxucuya tanıtdırıb çatdıracağım hələ nə qədər dağ kəndlərimiz var.***

**Nurəddin BABAYEV**
***Azərbaycan Respublikasının əməkdar jurnalisti***

*Rus batalist rəssamı (döyüş mənzərələrini təsvir edən rəssam) V.Maşkov (1792-1839) iki dəfə Naxçıvana gəlmişdir: birinci dəfə 11-12 may 1817-ci il tarixdə İrana gedən Rusiya elçiliyinin rəhbəri A.P.Yermolovun diplomatik heyətində, ikinci dəfə isə 1827-ci il iyun ayının 27-də. O, 1816-1818-ci illərdə İrandakı Rusiya səfirliyində, 1827-1829-cu illərdə isə qraf İ.Paskeviçin döyüşən ordusunda hərbi xidmətdə olmuşdur. V.Maşkov Naxçıvanda olduğu bu illərdə (ikinci dəfə Naxçıvanda müharibə başa çatanadək qalmışdır) naturadan eskizlər etmiş, sonra bunların əsasında akvarel ilə tarixi illüstrasiyalar çəkmişdir.*

Axtarışlar, tapıntılar

# Görkəmli sərkərdə I Ehsan xan Kəngərli – Naxçıvanski hərbi rəssam, akademik V.D. Maşkovun çəkdiyi rəsm əsərində

Qeyd edək ki, V.Maşkov birinci dəfə də Naxçıvana gələrkən rəsmlər çəkmişdir. A.Yermolov istefaya gedəndən sonra Oryolda və Moskvada yaşamışdır. V.Maşkovun həmin illərdə aparılan müharibələrdə çəkdiyi rəsm əsərlərinin çoxunu A.Yermolov özü ilə aparıb kolleksiya yaratmışdır. O, 1861-ci ildə Moskvada vəfat etmiş, anadan olduğu Oryol vilayətində dəfn olunmuşdur. Biz bunları nəzərə alaraq, rəssamın rəsm əsərlərini Tiflis-Oryol-Moskva-Sankt-Peterburq istiqamətlərində axtarırıq. Özündən sonra da həmin zəngin rəsm kolleksiyası qalmışdır. Deyilənlərə görə, o, I Kalbalı xanın da rəsmini çəkmişdir.

Batalist rəssamın çəkdiyi şəkillərin xeyli hissəsi təkcə rəsm əsərləri deyil, həm də tarixdir, əyani arxiv sənədidir.

Yeri gəlmişkən deyək ki, V.Maşkov Rusiya çarı I Nikolayın sevimli sərkərdəsi, feldmarşal İ.Paskeviçi müşayiət etdiyindən çəkdiyi rəsmlər onun hərbi yürüşlərinə aiddir.

Çar I Nikolay əvvəllər İ.Paskeviçin yanında hərbi xidmətdə olduğundan ona böyük etimadı vardı. O, qrafa "ata-komandir", – deyə müraciət edirdi. I Nikolay İ.Paskeviçə inandığına görə Qafqazın çətin günlərində onu buradakı Rusiya qoşunlarının baş komandanı (1827-1831-ci illərdə) vəzifəsinə təyin etmişdi. Rusiya imperiyasının tarixində çox gənc ikən bütün hərbi mükafatları alan İ.Paskeviç milliyyətcə Ukraynanın Poltava kazaklarındandır. Qədim bir nəslə mənsub olan Paskeviçin Naxçıvanda olarkən fəaliyyətinə dair maraqlı tarixi sənədlərin bir hissəsini Tiflisdəki Gürcüstan Milli Arxivinin fondlarında tapa bildik.

Sankt-Peterburqdakı Rusiya Dövlət Tarix Arxivində onun zəngin şəxsi arxivi saxlanılır. İ.Paskeviçin arxivində 3000-dən artıq qovluq vardır. Onları araşdırmadan, öyrənmədən Cənubi Qafqazın "işğalı" haqqında ətraflı danışmaq çətindir. Çünki Azərbaycanın bir çox xanlıqlarını işğal edən feldmarşal ömrünün sonuna kimi Naxçıvanın Kəngərli süvarilərinin igidliklərini unuda bilməmiş, bu haqda həmişə rəğbətlə, ehtiramla danışmışdır. Onun apardığı ikinci rus-İran (1826-1828) və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələri zamanı Naxçıvan ciddi dağıntılara məruz qalmışdır. Burada bir incə mətləb var. İ.Paskeviç naxçıvanlıların hünərinə, mərdliyinə, açıq süfrə sahibi olmalarına, sədaqətlərinə heyran qaldığını gizlətməmişdir. Hətta o, Naxçıvan ağsaqqallarına məktub da göndərib. Orijinal mətni tapa bildik.

Doğrudur, II rus-İran müharibəsini A.P.Yermolov ərsəyə gətirmişdir. Paskeviç müharibə başlayandan üç ay sonra Qafqaza ezam edilmiş və İrəvan, Naxçıvan xanlıqlarının üzərinə hərbi yürüşə başlamışdır. Doğrudanmı, İrandan və Türkiyədən erməniləri Qarabağa və Naxçıvana, eləcə də İrəvana köçürmə layihəsinin müəllifi odur? Bu tarixi bələ olan köçürülmə layihəsinin əsl müəllifləri kimlərdir? Paskeviç niyə katalikos Nersesə qarşı amansız idi? Buna görə çar I Nikolay qrafı cəzalandırmaq istəyirdi. Amma İ.Paskeviç ortalığa əsaslı dəlillər qoyaraq torpaqlarını işğal etdiyi azərbaycanlıları müdafiə edirdi. Bunlar maraqlı məsələlər olsa da, ayrıca bir yazının mövzusudur.

Araşdırmalar göstərir ki, feldmarşal İ.Paskeviç və çar I Nikolay Qafqazın elitasına I Ehsan xan Kəngərlinin şəxsində hörmətlə yanaşmışdır.

Ehsan xanın və qraf İ.Paskeviçin dostluğuna dair maraqlı sənədlər olsa da, bir sıra tədqiqatçılar hələ də Türkmənçay müqaviləsinin əsas günahını Ehsan xanda görürlər. I Kalbalı xan və onun oğlu Ehsan xan üçün Naxçıvanın müstəqilliyi müqəddəsdən



müqəddəs idi. Onlar Naxçıvan uğrunda misilsiz cəsarət nümayiş etdirmişdilər. I Kalbalı xan Qacarlar dövlətinə heç kimin gətirə bilmədiyi döyüş qələbələrini gətirmişdir. Söykəndiyimiz bir tarixi mənbə bu haqda geniş məlumat verir.

Abbas Mirzə (1789-1833) Fətəli şahın oğlu idi və 1799-cu ildə, yəni I Kalbalı xanın sağlığında Araz çayından cənubdakı Azərbaycan xanlıqlarına vali təyin edilmişdi. Cəsur sərkərdə idi. Amma Naxçıvan və İrəvan xanlıqlarının onlardan həmişə asılı olmasına var gücü ilə çalışırdı. O, 1804-1813, 1826-1828-ci illər rus-İran, 1821-1823-cü illər İran-Osmanlı müharibələrində orduda komandanlıq etmişdi. 1823-cü ildə I Kalbalı xan Məkkədən gələrkən Təbrizdə zəhərli şərbət içirdilərək öldürülür. Naxçıvanın xan Kəngərlilərinin hüquqları əllərindən alınmışdı və sair səbəblər I Ehsan xanı Fətəli şahın hakimiyyətindən çox narazı salmışdı. Ona görə də 38 yaşlı I Ehsan xan ona müstəqil vədlər verən qraf İ.Paskeviçlə gizli danışıqlar aparırmış.

Bir məsələyə açıq münasibət bildirmək istərdik. Türkmənçay mövzusuna aid çoxlu əsərlər yazılsa da, bunlar müharibə vaxtı və sonralar rus hərbi tədqiqatçılarının yazdıqları qədər faktlarla zəngin deyil. Çünki tarix real faktlara söykənir. Axtarışlar, ancaq axtarışlar əsl həqiqəti ortaya çıxara bilir. Ona görə də biz təkrar-təkrar V.Maşkovun 1826-1828-ci illərə aid çəkdiyi döyüş illüstrasiyalarına baxırdıq, ələvə olaraq həmin illərdə yazılan gündəlikləri, kitabları oxuyurduq. Çox təəssüf ki, V.Maşkovun rəsm əsərləri üzərində ciddi araşdırmalar aparılmayıb. Məqamındaca deyək ki, V.Maşkovun unikal tarixi sənədləri əvəzləyən rəsm əsərlərinin xeyli hissəsinin toplandığı albom Milli Azərbaycan Tarixi Muzeyinin nadir kitablar fondunda qorunur. O albomdakı rəsmlərdən biri diqqətimizi çox çəkdi. Ağ-qara rəngli rəsm əsəri "Persiya qalası Abbasabadın 7 iyul 1827-ci ildə təhvil verilməsi" adlanır. Abbasabad qalası Azərbaycan qalasıdır. O, Naxçıvan xanlığında, şəhərin 8 verstliyində yerləşirdi. Əlbəttə, rəssam səhvən belə adlandırmışdır. Həmin illərdə belə səhvlərə tez-tez yol verilmişdir.

Abbasabad qalası ətrafında gedən döyüşlər, həmçinin Naxçıvanın 25 kilometrliyində (Xok kəndində) gedən ciddi döyüşlər haqqında ətraflı yazmışıq.

Həmin vaxtlar I Ehsan xan Abbasabad qalasında Naxçıvan Kəngərli batalyonunun komandiri idi. Əvvəllər Abbasabad qalasının komendantı olsa da, sonralar Abbas Mirzə onu bu vəzifədən uzaqlaşdırmışdır. Naxçıvan xanlarının sonuncu xanı Kərim xan şahzadə Abbas Mirzənin Xok kəndində məğlubiyyətini görən kimi Naxçıvan şəhərinin əhalisinin əksəriyyətini məcburən Arazın o tayına köçürmüşdü. Ona görə də Rusiya qoşunlarının Naxçıvana sərbəst daxil olmasını yazırlar. Bəs Xok kəndində kazaklarla əlbəyaxa döyüşənlər naxçıvanlılar deyildimi? Əlbəttə, onlar idi. Nə qədər şəhidlər vermişdi Naxçıvan. Bunlardan qalada dustaq vəziyyətində qalan I Ehsan xanın xəbəri vardı. O, Kəngərlilərin qeyrət qalası olan Naxçıvan xanlığını məhv olmaqdan qorumaq, Kəngərli elini gözləyən "köçürülmə sürgünlərindən" xilas etməyin yollarını arayırdı və məcburən güclü tərəflə danışıqlar aparırdı. Amma bəzilərinin yazdığı kimi, o, qala qapısı açmayıb, açar təhvil verməyib, kimsəyə baş əyməyib.

Nə yaxşı ki, rəssam V.Maşkov həmin anı eskiz edib və kətana köçürüb. İndi həmin tarixi rəsm əsərində təsvir olunanlar haqqında axtarışlar nəticəsində öyrəndiklərimizi sizinlə bölüşmək istərdik.

Bu rəsm əsərində kimlərin təsvir olunduğunu Platon Zubovun yazdığı əsərlər əməlli̇cə "açar" rolunu oynadı. Həmin əsərlər bunlardır:

1. "Kartina posledney voynı s Persiyey 1826-1828", SPB. 1834 q. (Persiya ilə 1826-1828-ci illərdə aparılan axırıncı müharibənin mənzərəsi);

2. "Podviqi russkix vounov v stranax Kavkazskix s 1800-1834 q", (II tom, SPB. 1836), (1800-1834-cü illərdə Qafqaz ölkələrində rus döyüşçülərinin hünərləri).

P.Zubov ikinci kitabda yazır: "Şahın kürəkəni Məhəmmədemin xan qabaqda qalanın açarlarını təqdim etməyə aparırdı. Ondan sonra onun starşinaları (kəndxudaları) və vilayətin hörmətli şəxsləri gəlirdilər". Bu cilddə Abbasabad qalasında gedən döyüşlərdən danışılır.

P.Zubovun bu tarixi qeydləri V.Maşkovun çəkdiyi rəsm əsərindəki şəxslərin kimliyini aydınlaşdırmağa imkan verir. Ağ atın üstündə qraf İ.Paskeviç dayanmışdır. Məhəmmədemin xan ona təzim edərək Abbasabad qalasının açarını təqdim edir. Yanında iki starşinası var. Ondan sonra onun bayraqdarı döyüş bayrağını təhvil vermək üçün gətirir. Bir az aralıda I Ehsan xan atının yüyənindən tutaraq dayanmışdır. Onun süvari döyüşçü qamətini rəssam dəqiqliklə təsvir etmişdir. Atın belində bəzəkli xalça görünür. Ondan xeyli arxada Naxçıvan Kəngərlilərinin batalyonu döyüş bayraqları ilə dayanmışdır. Məhəmmədemin xanın döyüşçüləri çoxdurlar. Nizamlı dayanıblar. Birinci cərgədə musiqiçilərin Rusiya ordusunu marşla qarşıladıqları yaxşı görünür. Rəssam çox dəqiqliklə həmin anı təsvir etmişdir. Burada həm Naxçıvan batalyonu, həm də Məhəmmədemin xanın sərbazları eyni milli geyimdə və papaqdadırlar. Çünki hamısı azərbaycanlıdır.

*Batalist rəssamın məşhur tarixi rəsm əsəri Naxçıvanın tarixində bir mübahisəli məsələnin həll edilməsində və I Ehsan xanın şəklinin bizim zəmanəyə də gəlib çatmasında maraqlı illüstrasiya olmaqla əvəzsiz mənbədir.*

**Musa QULİYEV**
***tarix üzrə fəlsəfə doktoru***

## "Araz-Naxçıvan" bu gün ölkə kuboku uğrunda ilk oyununu keçirəcək

Bu gün Azərbaycan kuboku uğrunda "Araz-Naxçıvan" futbol komandası uzun aradan sonra ilk oyununu keçirəcək. I divizionun 8 komandasının qatıldığı ölkə kubokunun 1/16 mərhələsində artıq 3 görüş keçirilib. Sayca 22-ci kubok mövsümü




olan cari ildə muxtar respublika təmsilçisinin rəqibi Ağsunun eyniadlı komandasıdır. Ötən mövsüm I divizionun qalibi olan Şirvan klubu cari ildə bir qədər inamsız təsir bağışlayır.

"Ağsu" komandası ilə keçiriləm oyun "Araz-Naxçıvan"ın ölkə kuboku tarixində meydana çıxacağı 5-ci qarşılaşma olacaq.

"Araz-Naxçıvan" futbol komandası yarandığı gündən indiyə qədər "Ağsu" komandası ilə qarşılaşmayıb. Ölkə kubokunun reqlamentinə görə, 1/16 və 1/8 final mərhələsində rəqiblər arasında bir oyun keçirilir. Qalib gələn tərəfi isə 1/4 final mərhələsində iki görüş gözləyir: "ev"də və səfərdə. Muxtar respublika təmsilçisi "Ağsu" matçını qələbə ilə başa vurduğu təqdirdə 1/8 final mərhələsində Premyer Liqa klubu "Simurq"u qəbul edəcək. Zaqatala təmsilçisi ilə də görüş məhz Naxçıvan Muxtar Respublika Stadionunda oynanılacaq.

"Ağsu" I divizionun son turunda "Energetik"i 4:1 hesabı ilə məğlub edib və hazırda 13 xalla turnir cədvəlinin 5-ci pilləsində qərarlaşıb. Bu görüşə marağın yüksək olacağı gözlənilir. Bu gün saat $14^{00}$-də Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək matçı izləmək üçün giriş pulsuz olacaq.

**Ceyhun MƏMMƏDOV**

## "İnam" hərbçilər qarşısında çıxış edib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud ifaçılardan ibarət "İnam" musiqi qrupu oktyabrın 28-də Ordubad rayonunda yerləşən "N" hərbi hissənin zabit və əsgərləri qarşısında növbəti konsert proqramı ilə çıxış edib. Qrupun ifa etdiyi musiqi nömrələri hərbçilər tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, adıçəkilən ansambl tez-tez muxtar respublika ərazisindəki hərbi hissələrdə olur, Vətən qarşısındakı xidməti borcunu yerinə yetirən əsgər və zabitlərin asudə vaxtlarının səmərəli təşkilinə öz töhfələrini verir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Kəngərli rayonunun Xok icmasının tender komissiyası icma qrupunun hazırladığı "Elektrik sistemlərinin bərpası və genişləndirilməsi" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

* *Maraq məktubu*
* *Nizamnamə*
* *Maddi-texniki və insani resurslar barədə məlumat*
* *Son illərdə infrastruktur tipli layihələrdə iş təcrübəsinin olması*
* *Maliyyə vəziyyəti barədə arayış.*

Qeyd olunmuş sənədlər toplusunu 8 noyabr 2013-cü il saat $18^{00}$-ə kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Kəngərli rayonu, Xok kəndi, tender komissiyası icma qrupunun sədri Hicran Nağıyev***
***Əlaqə telefonu: (050) 599 19 44***

## Allah rəhmət eləsin

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları Əmiraslan Kələşova, anası **SƏKİNƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin Baş direktoru Yasin Səfərov və agentliyin kollektivi iş yoldaşları İsmixan Nağıyevə, qayınatası **SÜLEYMANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru Oruc Həsənli və institutun professor-müəllim heyəti Naxçıvan Dövlət Universitetinin rektoru Saleh Məhərrəmova, əzizi **ZƏROŞ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri Zəhmət Şahverdiyev və kafedranın əməkdaşlarından Allahverdi Hüseynov, Elçin Zamanov, Xəzər Hüseynov, Nadir Hüseynbəyli və Dağlar Məmmədov Saleh Məhərrəmova, əzizi **ZƏROŞ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin əməkdaşları Saleh Məhərrəmova, əzizi **ZƏROŞ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Rabitə İdarəsinin kollektivi iş yoldaşları İsa Qasımova, anası **FATMA XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əli Sadiqov ailəsi ilə birlikdə Cəhri Kənd Musiqi Məktəbinin dərs hissə müdiri Rüstəm Cəfərova, dayısı **TOFİQİN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 998